# "Azərsun Holdinq"də 20 Yanvar faciəsinin 30-cu ildönümünə həsr olunan anım tədbiri

**Ölkəmizin tarixində, mədəniyyətində və sosial həyatında yaxından iştirak edən "Azərsun Holdinq" 20 Yanvar faciəsinin 30-cu ildönümü ilə əlaqədar silsilə tədbirlər təşkil edir.**




"Azərsun" Mədəniyyət Mərkəzində təşkil olunmuş anım tədbirində şirkətlər qrupunun rəhbər heyəti, Şuşa rayon İcra hakimiyyətinin nümayəndələri, həmçinin 20 Yanvar şəhidlərinin ailələri iştirak edirdilər. Şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edildikdən sonra "Azərsun Holdinq"in hüquq direktoru Nazim Quliyev çıxış edərək 20 Yanvar faciəsinin Azərbaycan xalqının azadlıq və müstəqilliklə bağlı milli təfəkkürünün inkişafındakı rolundan danışdı. O, xalqın demokratiya və milli azadlıq uğrunda mübarizəsini boğmaq məqsədilə sovet rəhbərliyi tərəfindən Bakıya qoşun yeridildiyini və nəticədə 147 nəfərin öldürüldüyünü, 744 nəfərin yaralandığını və 841 nəfərin qanunsuz həbs olunduğunu bildirdi.

Daha sonra çıxış edən Şuşa Rayonu İcra başçısının müavini Vüsalə Fətəliyeva 20 Yanvar hadisələrinin ölkəmizin azadlığı və ərazi bütövlüyü uğrunda aparılan mübarizə tarixinə əbədi qəhrəmanlıq səhifəsi kimi daxil olduğunu, 30 il bundan əvvəl Bakıda törədilən qırğının Azərbaycan xalqının milli azadlıq mübarizəsini boğmaq məqsədi daşısa da, bu qanlı hadisənin xalqımızın müstəqillik əzmini qıra bilmədiyini və Azərbaycanın müstəqillik qazanmasına təkan verdiyini vurğuladı.

Rəsmi hissənin sonunda 20 Yanvar faciəsində şəhid olan Səxavət Quliyevin həyat yoldaşı Muhəstə Həsənova 30 il öncə gördüklərindən, insanların vəhşicəsinə qətlə yetirilməsindən danışdı.

Tədbir Şuşa musiqili dram teatrının "Yanvarın iyirminci günü" ədəbi-bədii kompoziyası ilə yekunlaşdı.

Qeyd edək ki, "Azərsun Holdinq" şirkətlər qrupu ölkəmizin müstəqilliyi və ərazi bütövlüyü uğrunda canından keçən qəhrəmanlarımızın xatirəsini hər zaman əziz tutur və mütəmadi olaraq müxtəlif layihələr reallaşdırır.

**Mehparə ƏLİYEVA,**
**"Respublika".**

Respublika.- 2020.- 18 yanvar.- S.6.